# HÜQUQLARINIZI BİLİN

Birləşmiş Ştatlarda əmək fəaliyyəti ilə məşğul olduğunuz zaman mövcud hüquqlarınızı əks etdirən məlumat kitabçası.

İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Qaynar Xətt:

(National Human Trafficking Hotline)

1-888-373-7888 (Birləşmiş Ştatlar daxilində)











# HÜQUQLARINIZI BİLİN

Əminik ki, Birləşmiş Ştatlarda olduğunuz müddət ərzində nizam-intizamlı qaydalarla qarşılaşacaqsınız. Çətin və uğursuz vəziyyətlərinizdə isə hüquqlarınız mövcuddur və sizə kömək edilməlidir!

## Sizin aşağıdakı hüquqlarınız var:

- Ədalətli şəkildə ödəniş əldə etmək;
- Ayrı-seçkiliyə məruz qalmamaq;
- Cinsi təcavüzə və cinsi istismara məruz qalmamaq;
- Sağlam və təhlükəsiz iş qaydaları ilə təmin edilmək;
- Birlik, immiqrant və əmək hüquqları qruplarından yardım istəmək;
- Təhqirə yol verilən iş yerini tərk etmək.

***ƏGƏR SİZİNLƏ KOBUD RƏFTAR EDİLƏRSƏ, 1-888-373-7888 – İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ MİLLİ QAYNAR XƏTTƏ ZƏNG EDİN (ABŞ DAXİLİNDƏ); "KÖMƏK" mətnini 233733 nömrəsinə (ABŞ DAXİLİNDƏ) və ya NHTRC@POLARISPROJECT.ORG elektron poçt ünvanına göndərin.***

***200-DƏN ÇOX DİLDƏ HƏR ZAMAN KÖMƏK ETMƏYƏ HAZIR OLAN TƏLİMATLANDIRILMIŞ MÜTƏXƏSSİSLƏR MÖVCUDDUR. ADINIZI, yaxud ŞƏXSİ MƏLUMATLARINIZI SÖYLƏMƏYƏ EHTİYAC YOXDUR. ƏTRAFLI MƏLUMAT ÜÇÜN BAX: WWW.TRAFFICKINGRESOURCECENTER.ORG.***

Təhlükədə olduğunuz zaman 911 nömrəsinə – polisə zəng edin (ABŞ daxilində). Polisə fövqəladə vəziyyətə düşdüyünüzü, yerinizi və zəng etdiyiniz telefon nömrəsini söyləyin. İngilis dilində danışa bilmirsinizsə, tərcüməçi təmin edilməsini xahiş edin. Polis gəlib yetişdikdə, onlara bu kitabçanı göstərə və məruz qaldığınız sui-istifadə halları barədə məlumat verə bilərsiniz.

Əgər A-3, G-5, H, J, NATO-7 və ya B-1 – yerli işçi üçün qeyri-immiqrant vizası almış olsanız, viza müsahibəsi keçirilən zaman bu kitabça sizə təqdim olunmalıdır. Konsulluq işçisi sizin vizanı almazdan öncə bu kitabçanı əldə edərək məzmunu ilə tanış olduğunuzu, mətni anladığınızı təsdiq etməli və onu sizinlə birlikdə müzakirə etməlidir. Bundan əlavə, konsulluq işçisi kitabçada əks etdirilən məlumatlar barədə hər hansı bir sualınızın olub-olmadığını da soruşmalıdır.

# VIZA STATUSUNDAN ASILI OLMAYAN HÜQUQLARINIZ:

Əgər hüquqlarınızın pozulduğunu düşünürsünüzsə, bu barədə hökumət agentliyinə, birliyə, qeyri-hökumət təşkilatına və sizə köməklik göstərə biləcək digər təşkilatlara müraciət edin. İngilis dilini bilmirsinizsə, tərcüməçi təmin edilməsini xahiş edin.

## 1. Ədalətli şəkildə ödəniş əldə etmək hüququnuz:

- Gördüyünüz bütün işlərin müqabilində ödəniş əldə etmək hüququnuz mövcuddur.
- Əksər işlər üçün ən azından, federal hüquqa əsasən, minimum əməkhaqqı qazanmaq hüququnuz olacaqdır. Bax: cari federal minimum əməkhaqqı üçün *www.dol.gov/whd/minimumwage.htm*
- Aşağıda göstərilən hallarda federal qanuna əsaslanan minimum əməkhaqqından daha çox gəlir əldə etmək hüququnuz ola bilər:
    - Daha yüksək minimum əməkhaqqına malik ştat, şəhər və ya dairədə işləyirsinizsə;
    - Əmək müqaviləniz/viza proqramınız daha yüksək məbləğ tələb edirsə;
- Həftədə 40 saatdan artıq işlədiyiniz saatlar üçün saatlıq əməkhaqqının məbləğindən bir tam onda beş dəfə (1.5) çox əlavə ödəniş almaq hüququnuz var; Məsələn: normal əməkhaqqı dərəcəniz bir saata görə on dollardırsa ($10), bu zaman işəgötürəndən bir həftədə 40 saatdan yuxarı işlədiyiniz hər saat üçün on beş dollar ($15) ödəmək tələb edilə bilər.

***MƏSLƏHƏT:*** Birləşmiş Ştatlara gələcəyiniz zaman istinad etmək üçün bu kitabçanı da özünüz ilə götürməyi unutmayın.



*MƏSLƏHƏT:* Birləşmiş Ştatlarda qalacağınız müddətdən asılı olaraq, sizdən tibbi sığorta tələb edilə bilər. Tibbi sığorta xərclərini azaltmaq üçün həmçinin maliyyə yardımı ala bilərsiniz.

- İşəgötürən əməkhaqqınızdan pul tutarsa, bu, çıxılma adlanır. İşəgötürən əməkhaqqınızdan hər bir tutulma və ya çıxılma haqqında sizi aydın şəkildə məlumatlandırmalıdır.
- Tutulma və ya çıxılmadan sonra, sizdə hüquqi olaraq tələb edilən əməkhaqqı dərəcəsindən daha az pul qalarsa, bu zaman onlar qanunsuz sayıla bilər. İşəgötürən vahid geyim formaları, təhlükəsizlik texnikası, tələb olunan alətlər, təchizatlar, avadanlıqlar və ya işəgötürmə haqqlarının xərcləri üçün tutulma və ya çıxılma edə bilməz. Bəzi viza kateqoriyaları üçün hətta mənzil pulsuz olaraq təmin edilməlidir.
- Qanuni tutulma və ya çıxılmalara sizin seçdiyiniz bölmələr aid edilə bilər. Bunlara, məsələn, tibbi sığorta, birlik haqqları və ya əməkhaqqı avansları, eləcə də uşaqlara dəstək, aliment və müflisləşmə icraatları üzrə məhkəmə tərəfindən müəyyənləşdirilən, işəgötürənin edə biləcəyi tutulma və ya çıxılmalar daxildir. Çox az istisnalar olmaqla, Birləşmiş Ştatlarda işləyən qeyri-immiqrant viza sahiblərindən federal, dövlət gəlir və məşğulluq vergiləri tutulur. İşəgötürən ilə gəlir vergisinin birbaşa olaraq əməkhaqqınızdan tutulmağına dair razılığa gələ bilərsiniz. İşəgötürən, adətən, məşğulluq vergilərini, o cümlədən sosial təminat və tibbi xidmət vergilərini birbaşa olaraq əməkhaqqınızdan tutacaqdır.

## 2. Ayrı-seçkiliyə məruz qalmamaq hüququnuz:

- İşəgötürənin yaşınıza (yaşınız 40 və ya daha çoxdursa), cinsinizə, irqinizə, milli mənsubiyyətinizə, etnik mənşəyinizə, rənginizə, dininizə, genetik məlumatlarınıza (ailənin tibbi tarixçəsi daxil

***MƏSLƏHƏT:*** Birləşmiş Ştatlara getməzdən əvvəl miqrant işçi təşkilatlarından və əvvəlki miqrant işçilərdən məsləhət alın. Onlar Birləşmiş Ştatlarda olduğunuz zaman problem və suallarınız yaranacağı təqdirdə, əlaqə saxlaya biləcəyiniz aidiyyəti şəxslərin, təşkilatların adlarını və nömrələrini sizə təqdim edə bilərlər.



olmaqla) və ya əlilliyinizə görə iş zamanı sizin ilə fərqli və ya pis şəkildə rəftar etməsi qanunsuzdur.

- İşəgötürən qadın və ya hamilə olduğunuz, uşağa baxdığınız üçün sizin ilə fərqli şəkildə rəftar edə bilməz.

## 3. Cinsi təcavüz və cinsi istismara məruz qalmamaq hüququnuz:

- İşəgötürənin cinsi olaraq sizə təcavüz etməsi qanunsuzluqdur. İşəgötürən hər hansı cinsi və ya gender əsaslı rəy bildirməməlidir.
- İşəgötürənin, aşağıda göstərilən hallar da daxil olmaqla, sizi cinsi baxımdan istismar etməsi qanunsuzluqdur:
  - Hər hansı seks aktını yerinə yetirməyi sizdən tələb etməsi;
  - Sizə seksual şəkildə toxunması;
  - Hər hansı seks aktını yerinə yetirməyə sizi vadar etməsi, aldatması və məcbur etməsi.

## 4. Sağlam və təhlükəsiz iş yeri hüququ

Birləşmiş Ştatlarda çalışan işçi kimi siz aşağıda göstərilənlər də daxil olmaqla, sağlam və təhlükəsiz iş yeri ilə bağlı hüquqlara maliksiniz:

- ***Tibbi müalicə.*** İş prosesi zamanı aldığınız xəsarətləri və digər nasazlıqları işəgötürənə bildirmək hüququnuz var. İşdə xəsarət alsanız və ya xəstələnsəniz, bu zaman tibbi müalicə ala bilərsiniz. Əksər hallarda, iş prosesi zamanı alınan xəsarətlər və ya xəstəliklər üçün işəgötürən pulsuz tibbi müalicə, xəsarət aldığınız təqdirdə isə əməkhaqqından itirilmiş hissəni təmin etməlidir. İşlədiyiniz ştatda



işçilər üçün nəzərdə tutulan kompensasiya üçün müraciət etməli ola bilərsiniz.

- ***Qoruyucu avadanlıqlar.*** Pestisidlər, təhlükəli kimyəvi maddələr ilə və ya onların yaxınlığında işləyirsinizsə, işəgötürən iş üçün tələb olunan qoruyucu avadanlıqları almalı və sizə onları təmin etməlidir (respirator və ya əlcəklər).
- ***Təlim.*** Təhlükələr, təhlükənin qarşısının alınması metodları, iş yerinizə şamil olunan sağlamlıq, təhlükəsizlik standartları haqqında məlumat almaq və təlimlərdən keçmək hüququnuz mövcuddur. Təlim sizin başa düşəcəyiniz dildə təşkil olunmalıdır.
- ***Mənzil.*** İşəgötürən sizi mənzil ilə təmin edərsə, həmin mənzil təmiz və təhlükəsiz olmalıdır. Qeyri – iş saatlarında mənzilinizdən çıxmaq hüququnuz var.
- ***Vanna otaqları (hamam).*** Vanna otaqları təmiz və istifadə üçün əlçatan olmalıdır. İşəgötürən, lazım olduqda, vanna otağından istifadə hüququ verməlidir.
- ***İçməli su.*** İçməyə yararlı su almaq hüququnuz var.
- ***Sabun və istifadəyə yararlı su.*** Xüsusi olaraq pestisidlər/kimyəvi maddələr ilə işlədikdən, o cümlədən pestisidlər/kimyəvi maddələr istifadə edilmiş meyvə-tərəvəzləri götürdükdən sonra, lazım gəldikdə əllərinizi sabun və su ilə yumaq hüququnuz var.
- ***Tibbi fövqəladə hallar*** zamanı sizin xərcləriniz ödənilə bilər, buna görə də xəsarət və ya xəstəliyiniz barədə işəgötürənə mümkün qədər tez məlumat verin ki, o, zəruri sənədləşmə işlərini apara bilsin. Həkim qəbulunda, klinikada və ya xəstəxanada olduğunuz zaman xəstəliyiniz və xəsarətiniz ilə bağlı sənədlərin nüsxəsini tələb edin.

*MƏSLƏHƏT:* İşəgötürən, podratçı və ya işədüzəltmə agentliyinin hüquqi məsləhətçisi qərəzli ola bilər. Belə olduqda, müstəqil vəkildən məsləhət alın.

Pestisidlər, təhlükəli kimyəvi maddələr ilə və ya onların yaxınlığında işləyirsinizsə:

- İşlədiyiniz kimyəvi maddələrin xüsusiyyətini bilmək və anlamaq hüququnuz var. İşəgötürən kimyəvi maddələr barədə sizə ödənişli təlimlər keçməlidir.
- İşəgötürən pestisidlərin harada və nə zaman istifadə olunduğunu, təsadüfi təsirə məruz qalınması hallarının qarşısını almaq üçün həmin ərazilərə nə zaman təkrar daxil olmağın təhlükəsiz olduğunu bildirməlidir. Pestisidlərin istifadə edildiyi sahələrdən uzaq durun.

## 5. Birlik, İmmiqrant və Əmək Hüquqları qruplarından kömək istəmək hüququnuz:

- Bəzi hallar istisna olmaqla, əməkhaqqınızı və iş şəraitinizi yaxşılaşdırmağı işəgötürəndən tələb etmək üçün həmkarlarınıza qoşulmaq hüququna maliksiniz. Əksər işçilərin iş yerində birlik yaratmaq, birliyə qoşulmaq və onu dəstəkləmək hüququ var.
- İşdə olmadığınız müddətdə siz daha yüksək əməkhaqqı və daha yaxşı iş şəraiti tələb edən ictimai çıxışlarda, yarışlarda və nümayişlərdə iştirak edə bilərsiniz.
- İmmiqrasiya vəziyyətinizdən asılı olmayaraq, aşağıda göstərilən hüquqlara maliksiniz. İşəgötürən hüquqlarınızı müdafiə etdiyiniz üçün sizə qarşı tədbir görə bilməz.

## 6. Sui-istifadə hallarına yol verilən məşğulluq vəziyyətinin tərk edilməsi hüququ;

- Sizdən sui-istifadə edilərsə, ən vacib amil təhlükəsizliyinizi tələb etməkdir. İşəgötürən sizdən sui-istifadə edərsə, bu zaman işdə qalmağa məcbur deyilsiniz.
- İşəgötürəni tərk etdiyiniz üçün viza statusunuz artıq etibardan düşmüşsə, sizin viza statusunuzu və ya işəgötürəninizi dəyişmək imkanınız olacaqdır. Bəzi hallarda bunu etmək üçün Birləşmiş Ştatları tərk etməli ola bilərsiniz. Viza statusunuz etibarlı olmasa belə, sui-istifadə hallarına yol verən işəgötürəni tərk etdikdən sonra sizə köməklik göstəriləcəkdir
- İşlədiyiniz vaxt ərzində və ya işəgötürəni tərk etdikdən sonra, ona qarşı rəsmi şəkildə şikayət edə və ya iddia qaldıra bilərsiniz. İşəgötürən bunu etdiyiniz üçün sizə qarşı hər hansı tədbir görərsə (və ya qisas alarsa), bu zaman o, qanunu pozmuş olacaq.

# QEYRI-IMMIQRANT STATUSUNUZA ƏSASLANAN ƏLAVƏ HÜQUQLAR

## A-3, G-5, NATO-7 və B-1 – yerli işçilər

- İşəgötürən sizi ABŞ qanunlarına uyğun olan əmək müqaviləsi ilə təmin etməlidir.
- Müqavilədə yerli işçiyə ödəniləcək saatlıq əməkhaqqı qeyd olunmalıdır. Saatlıq əməkhaqqı ABŞ federal, dövlət və yerli qanununa əsasən minimum əməkhaqqının ən yüksək həddində olmalıdır.
- İşəgötürənlər müqavilənі başa düşdüyünüz dildə sizə təqdim etməlidirlər. Müqavilənin şərtlərinə bələd olmadan və nə söylənildiyini anlamadan sənədi imzalamayın.

## A-3, G-5 və NATO-7 – yerli işçilər üçün əlavə tələblər

*Müqavilədə minimal olaraq aşağıdakı müddəalar qeyd edilməlidir:*

- İşəgötürən tərəfindən Birləşmiş Ştatlarda qüvvədə olan bütün qanunlara əməl edilməsi barədə razılıq;
- Ödənişin tezliyi və forması; iş növbələri; həftəlik iş saatları; bayram günləri; xəstəliyə görə icazə verilən günlər və məzuniyyət günləri haqqında məlumat və s.;
- İşəgötürən tərəfindən pasportunuzun, əmək müqavilənizin və digər şəxsi əşyalarınızın saxlanılmaması barədə razılıq əldə edilməsi;

## H-2A – müvəqqəti kənd təsərrüfatı işçisi vizaları

- Siz heç vaxt İşəgötürmə Agentliyinə ödəniş etməməlisiniz.
- Sizə başa düşəcəyiniz dildə yazılı iş müqaviləsi verilməlidir. Burada əməkhaqqı, işin müddəti, saatlar, müavinətlər (o cümlədən nəqliyyat, mənzil, qidalanma və ya yeməkhazırlama imkanları) və əməkhaqqınızdan tutulma və çıxılmalar barədə ətraflı məlumatlar olmalıdır.
- Hissə-hissə ödəniş ediləcəyi təqdirdə belə, ödənişi ədalətli şəkildə almaq hüququnuz var.
- İşəgötürən yerləşdiyiniz məkandan iş yerinədək qət etdiyiniz nəqliyyatın və gündəlik xərclərin ödənişini təmin etməlidir. Siz əmək müqavilənizin yarısını tamamladıqdan sonra, işəgötürən



*MƏSLƏHƏT:* İşəgötürən sizə vaxtında ödəniş etməlidir. Amerika Birləşmiş Ştatlarında işçilərin iki həftədə bir dəfə maaş almaları qəbul olunmuş təcrübədir.

əsaslı xərclərin əvəzini sizə qaytarmalıdır. Əmək müqavilənizi başa vurduqdan sonra, işəgötürən iş yerindən yerləşdiyiniz məkanadək qət etdiyiniz nəqliyyat və gündəlik xərclərinizi təmin etməli və onların əvəzini sizə qaytarmalıdır. Xərcləriniz çıxıldıqdan sonra, qalan əməkhaqqınız ABŞ-da müəyyənləşdirilən minimum əməkhaqqından az olarsa, işəgötürəndən ilk iş həftəsində yol və viza xərclərini ödəmək tələb oluna bilər. İşəgötürən, həmçinin işçinin evdən iş yerinədək istifadə etdiyi nəqliyyat vasitəsinin ödənişini təmin etməlidir.

- Siz H-2A vizası ilə əlaqədar olaraq, göstərilən xidmətlər üçün ödənilən kompensasiya üzrə ABŞ Sosial Müavinət və Tibbi vergilərindən azadsınız.
- Ümumiyyətlə, işəgötürən müqavilə qüvvədə olduğu müddət ərzində iş günlərinin, ən azı, ¾ hissəsinə bərabər olan saatların cəmi sayı üzrə sizə iş təklif etməlidir.

## H-2B – müvəqqəti qeyri-kənd təsərrüfatı işçisi vizası

- Siz heç vaxt İşəgötürmə Agentliyinə ödəniş etməməlisiniz.
- Sizə başa düşdüyünüz dildə yazılı iş müqaviləsi təqdim edilməlidir. Burada əməkhaqqı, işin müddəti, saatlar, müavinətlər (o cümlədən nəqliyyat, mənzil, qidalanma və yeməkhazırlama imkanları), əməkhaqqınızdan tutulma və çıxılmalar barədə ətraflı məlumat olmalıdır.



- Ümumiyyətlə, işəgötürən müqavilə qüvvədə olduğu müddət ərzində iş günlərinin, ən azı, ¾ hissəsinə bərabər olan saatların cəmi sayı üzrə sizə iş təklif etməlidir.
- Sizə hissə-hissə ödəniş edilsə belə, ödənişi ədalətli şəkildə əldə etmək hüququnuz var.
- İşəgötürən müqavilə müddətinin yarısını tamamladığınız vaxtadək xaricdən gəlmək üçün sizin nəqliyyat və digər xərclərinizi təmin etməli, onların əvəzini ödəməlidir. Bundan əlavə, məşğulluq müddətinizi tamamlamış olsanız, işə verilən məşğulluq müddətinin başa çatmasından əvvəl hər hansı səbəbdən işdən çıxarılsanız, işəgötürən evinizədək olan nəqliyyat xərclərini və digər xərclərinizi ödəməlidir. Xərcləriniz çıxıldıqdan sonra, qalan əməkhaqqınız ABŞ-da müəyyənləşdirilən minimum əməkhaqqından az olarsa, işəgötürəndən ilk iş həftəsində yol və viza xərclərinin ödənilməsini tələb edə bilərsiniz.

## J-1 Mübadilə proqramları üçün viza

- Sizə məxsus olan təsdiq edilmiş – DS-2019 proqramınızın tarixini, mübadilə kateqoriyasını, sponsorunuzun adını və mübadilə proqramınızın keçiriləcəyi müəssisəyə ev sahibliyi edəcək qurumu nəzərinizə çatdırır.
- Sponsorunuz mübadilə proqramınız üzrə bütün xərcləri, şərtləri və məhdudiyyətləri dəqiqliklə sizə izah etməlidir.

## Yay iş səyahəti

- Əvvəlcədən müəyyən edilmiş iş yeriniz yoxdursa, ABŞ-a gəldiyiniz zaman sponsorunuz sizə iş yeri tapmaqda kömək etməlidir.

## İnterna və təcrübəçi

- Sponsorunuz şəxsən telefon, yaxud veb-kamera ilə sizinlə söhbət aparmalıdır.
- Sponsorunuz sizə əldə edəcəyiniz istənilən gəlir haqqında yazılı sənəd, proqramın təlim məqsədlərinin xülasəsini əhatə edən təcrübəçi və təlim keçən şəxsin yerləşdirmə planını (DS-7002) verməlidir. Sizə həftədə, ən az – 32 iş saatı verilməlidir.
- Sponsorunuz sizə ödəməli olacağınız xərclər və digər ödənişlər barədə yazılı məlumat, həmçinin ABŞ-da yaşayış xərclərinin cədvəlini təqdim etməlidir.
- Sponsorunuzdan sığorta təminatı təmin etmək və bununla bağlı ödəniş etmək tələb olunmasa da, tibbi sığorta təminatı olmasını təmin etməlidir.

## Dil öyrənmək məqsədilə ailədə yaşayan əcnəbi

- Sizi qəbul edən ailə ali təhsil müəssisəsində qeydiyyatdan keçməyinizə və dərslərdə iştirak etməyinizə köməklik göstərməli və bu dərslərlə bağlı 500 dollar ödəniş etməlidir.
- Gündə 10 saatdan və həftədə 45 saatdan çox işləməyiniz tələb olunmur.
- Məsləhətçiniz mütəmadi olaraq sizinlə və sizi qəbul edən ailə ilə əlaqə saxlamalıdır.

*MƏSLƏHƏT:* Səyahət etməzdən əvvəl bütün vacib sənədlərin, xüsusən pasportunuzun və ABŞ vizasının, əmək müqavilənizin və şəxsiyyəti təsdiq edən istənilən əlavə sənədlərin iki nüsxəsini çıxarın. Bu nüsxələrin bir dəstini Vətəninizdə etibar etdiyiniz şəxsə verin, digər dəsti isə özünüzlə aparın.

Ad

Soyad

Vizanın verildiyi yer

Doğum tarixi

“R” – “ümumvətəndaş pasportu”nu nəzərdə tutur. *“Class”* (sinif) vizanın növüdür.




“M” – ABŞ-a girişlə bağlı bir neçə dəfə müraciət edə biləcəyinizi nəzərdə tutur. Orada rəqəm göstərilmişsə, giriş üçün həmin sayda da müraciət edə bilərsiniz.

*“Expiration Date” (Etibarlıdır)* – ABŞ-a girişlə bağlı müraciət etmək üçün vizanızdan istifadə edə biləcəyiniz son günü nəzərdə tutur. Bunun ABŞ-da nə qədər qala biləcəyinizə aidiyyatı yoxdur.

*“Annotation” (Anotasiya)* – vizanızla bağlı əlavə məlumatları əhatə edə bilər. Məsələn: tələbə vizasında bu, SEVIS (Tələbə Mübadiləsi İnformasiya Sistemi) nömrənizi və məktəbinizin adını göstərəcəkdir.

# QEYRI-IMMIQRANT VIZANIZ

Qeyri-immiqrant vizası ABŞ-a gedən şəxslərə müəyyən məqsəd, o cümlədən, iş, təhsil və mədəni mübadilə proqramında iştirak etmək üçün müraciət etməyə icazə verən Birləşmiş Ştatların hökumət sənədidir. Viza almaq üçün ABŞ-ın xaricdəki səfirliyinə, yaxud konsulluğuna müraciət etməlisiniz. Qeyri-immiqrant vizası aldıqdan sonra, ABŞ-a səfər edə və qəbul üçün onu ABŞ immiqrasiya rəsmisinə təqdim edə bilərsiniz. Vizanızın müddəti başa çatırsa, Birləşmiş Ştatlara yeni girişdən əvvəl yeni viza almalısınız.




Amerika Birləşmiş Ştatlarına getməyinizə razılıq verildikdə, immiqrasiya rəsmisi pasportunuzu möhürləyir, qəbul tarixi, qəbul sinfi və qəbulun etibarlılıq müddətini qeyd edir. ABŞ Vətəndaşlıq və İmmiqrasiya xidmətlərinə müddətin uzadılması üçün ərizə ilə müraciət etməyəcəyiniz təqdirdə, qanuni statusda qalmağınız üçün I-94 qəbulun etibarlılıq tarixindən əvvəl ABŞ-ı tərk etməlisiniz. I-94 sənədlərinizi *https://i94.cbp.dhs.gov* səhifəsində yoxlaya bilərsiniz.

*MƏSLƏHƏT:* ABŞ-a gəldikdən sonra, pasportunuzu və digər vacib sənədlərinizi təhlükəsiz və etibarlı yerdə saxlayın. İşəgötürənin pasportunuzu sizdən alıb özündə saxlaması qanunsuzdur.



# İNSAN ALVERİ

İnsan alveri qurbanları müdafiə məqsədi daşıyan xidmətlərdən istifadə etmək hüququna malikdirlər və bəzi sosial yardımlardan yararlana bilərlər. İnsan alveri, güc tətbiq etmə, saxtakarlıq, uşaqların təzyiq vasitəsilə kommersiya maraqları güdülməklə cinsi istismarı, böyüklərin kommersiya maraqları güdülməklə cinsi istismarı, hər hansı fərdin məcburi əməyə cəlb edilməsi cinayətdir. Əməyin istismarı məqsədilə insan alverçiləri, qadın alveri ilə məşğul olan şəxslər və kommersiya maraqları güdülməklə cinsi istismarçılar, eləcə də onları əhatə edən şəxslər cinayətkardır, federal qanunlara və insan alverinə qarşı mübarizə haqqında dövlət qanunlarına əsasən mühakimə oluna bilərlər. Əməyin istismarı məqsədilə insan alveri ilə məşğul olan şəxslər və cinsi istismarçılar cinayət məsuliyyətinə, həmçinin mülki məsuliyyətə cəlb edilə bilərlər. Aşağıda qeyd olunanlar insan alverini göstərən bəzi xəbərdarlıq əlamətləridir.

## Təhlükə və qorxu

İnsan alveri ilə məşğul olan şəxslər və onlara kömək edən insanlar sizi və ya başqalarını işdən çıxmaq cəhdindən çəkindirmək üçün təhdid və digər qorxuducu hərəkətlərdən istifadə edə bilərlər. Məsələn:

- Döyülmə, fiziki zorakılıq, cinsi istismar;
- Döyülmə, fiziki zorakılıq, cinsi istismara təhdidlər;
- İşçinin iş yerindən, yaxud mənzildən çıxa bilməməsi üçün qapalı şəraitdə saxlanılmağa məcbur edilməsi və onun çıxmasına mane olmaq;
- İşdən azad olunmağa, pis rəftardan şikayətlənməyə, vəziyyəti dövlət orqanlarına bildirməyə, kömək istəməyə çalışacağınız təqdirdə, sizə və ailənizə zərər verməklə bağlı təhdidlər;

- Kömək istəyəcəyiniz təqdirdə, deportasiya oluna və ya həbs edilə biləcəyinizə dair təhdidlər;
- İşdən çıxmağa, şikayət etməyə, vəziyyətiniz barədə məlumat verməyə və kömək istəməyə çalışan digər işçilərə qarşı təhdid, zərər və qaçmağa çalışan hər kəsin tapılaraq geri qaytarılacağı ilə bağlı hədə-qorxular.

## Borc

İnsan alveri ilə məşğul olan şəxslər və onlara köməklik göstərən insanlar borcunuzu qaytarmaq üçün əmək, xidmət və cinsi istismar (fahişəlik) tələb edə bilərlər. Bəzi hallarda borc insan alveri ilə məşğul olan şəxslər tərəfindən yaradılır və tətbiq edilir. Əmək, xidmət və cinsi istismarı davam etdirməyə məcbur etmək, işdən çıxmağınıza mane olmaq üçün borcdan bəhanə kimi istifadə etmək qanuna ziddir. İnsan alveri ilə məşğul olan şəxslər borcunuzu qaytarmağı çətinləşdirmək üçün müxtəlif vasitələrdən Borc ödənilənədək xidmət göstərməli olduğunuza dair sizi inandıra bilərlər. Borcdan istifadə etməyə aşağıdakı misalları göstərmək olar:

- Müvafiq vaxtda ödənilməsi çətin və qeyri-mümkün olan, qazancınızdan artıq olan borcun tətbiq edilməsi;
- Əvvəlcədən razılaşdırmadığınız və razılaşdırılmış borcdan daha çox borcun tətbiq edilməsi;
- Qazancınızı borcun ödənilməsinə yönəltməkdən imtina;
- Borcu qaytarmaq üçün insan alveri ilə məşğul olan şəxsə nə qədər xidmət göstərməli olduğunuzu müəyyənləşdirməkdən imtina;
- Nəqliyyat, mənzil, yemək və əvvəlcədən razılaşdırmadığınız borclara ödənişlərin əlavə edilməsi;
- Qaydaları pozduğunuzu, kifayət qədər qazanc əldə edə bilmədiyinizi, yetərincə əmək, xidmət və kommersiya xarakterli cinsi istismar göstərmədiyinizi bəhanə gətirib, ödənişlərin, cərimə və cəzaların tətbiq edilməsi.

## Qaydalar və yoxlamalar

İnsan alveri ilə məşğul olan şəxslər və onlara kömək edən insanlar sizin və digərlərinin işdən çıxmasını, şikayət etməsini və kömək istəməsini çətinləşdirmək məqsədilə qaydalar və nəzarət vasitələrindən istifadə edə bilərlər. Məsələn:

- İş yerini tərk etməməyə dair qaydalar, işdə olmadığınız zaman gedə biləcəyiniz yerlərlə bağlı ciddi qadağaların irəli sürülməsi;

***MƏSLƏHƏT:*** İşəgötürənin sizə qarşı etdiyi hər hansı qeyri-müvafiq rəy və/və ya hərəkəti barədə ətraflı qeyd aparın, şahidlərin adlarını və telefon nömrələrini yazın.

- Şəxsi pasportunuzu, vizanızı, doğum şəhadətnamənizi və digər sənədlərinizi saxlamaq üçün müxtəlif bəhanələrin tətbiq edilməsi;
- Müvafiq qida, yuxu və tibbi xidmətdən imtina;
- Ailənizlə, digər işçilərlə, müştərilərlə və iş yerinizdən kənarda hüquqi, sosial xidmət işçiləri və digər şəxslərlə əlaqələrin qarşısını almaq, məhdudlaşdırmaq və nəzarət etmək.

## Aldatma və yalan

İnsan alveri ilə məşğul olan şəxslər və onlara köməklik edən insanlar aldatma və yalandan istifadə edə bilərlər. Məsələn:

- İşin növü, iş saatı, iş və yaşayış şəraiti, əməkhaqqı barədə yalan vədlər;
- Əvvəlcə yaxşı iş vəd edərək, sonra əhəmiyyətli dərəcədə uzun iş saatı, ağır iş şəraiti, vəd olunandan daha az əməkhaqqı ilə işləməyiniz tələb edilir;
- Əvvəlcə yaxşı iş vəd etmək, sonra başqa bir iş, xidmət və kommersiya məqsədli cinsi istismara məcbur etmək; tibb bacısı kimi bir iş vəd etmək, daha sonra isə Qocalar evində işləməyə məcbur etmək; dayə kimi işləməyə vəd vermək, daha sonra rəqqasəlik və kommersiya məqsədli cinsi istismara (fahişəlik) məcbur edilmək mümkündür.
- Heç bir hüququnuzun olmadığını sizə demək;
- Kömək istəsəniz, inanmayacaqlarını və deportasiya olunacağınızı söyləmək;
- İnsan alveri ilə məşğul olan şəxs haqqında yalan danışmağınıza dair təlimatlandırma

## Sui-istifadə barədə məlumat versəniz, deportasiya ediləcəksinizmi?

Sui-istifadə barədə məlumat verən insanları qorumaq üçün proqramlar mövcuddur. İmmiqrasiya ilə bağlı problemləriniz olarsa, belə kömək istəmədən qorxmamalısınız. İşəgötürəninizin işçisi olmayan immiqrasiya üzrə vəkillə məsləhətləşməlisiniz.

İnsan alverinin və digər təcavüzün, o cümlədən, zorakılığın qurbanı olduğunuzu ehtimal edirsinizsə, "T" – insan alveri qurbanları üçün və "U" – insan alveri və digər ağır cinayətlərin qurbanları üçün qeyri-immiqrant statusu kimi fərqli qeyri-immiqrant statusuna sahib ola bilərsiniz, yaxud digər şəkildə ABŞ-da müvəqqəti qalmağınıza icazə verilə bilər. Bu, qeyri-immiqrant təsnifatları qurbanları qorumaq üçün yaradılıb. ABŞ-da bir çox insan "T" və "U" qeyri-immiqrant statusu ilə tanış deyil və sizə kömək edən insanlara bu barədə məlumat verməyiniz lazım ola bilər.

## İnsan alveri qurbanları üçün hansı xidmətlər mövcuddur?

- ABŞ-da insan alveri qurbanları federal və dövlət proqramları çərçivəsində müavinət, xidmət və immiqrasiya yardımı almaq hüququna malikdirlər. Bir çox təşkilat tibbi/stomatoloji xidmət, psixi sağlamlıq, mənzil, immiqrasiya üçün hüquqi yardım və digər hüquqi tələblər, məşğulluq yardımı və ictimai müavinətləri əhatə edən bu xidmətləri əldə etməyə köməklik göstərə bilər.

***MƏSLƏHƏT:*** Çalışdığınız müddət ərzində qeydlər aparmaq yaxşı fikirdir. Bir qeyd dəftəri alın, işlədiyiniz günləri, saatları, nə qədər əməkhaqqı aldığınızı, ödəniş aldığınız tarixləri, əməkhaqqınızdan çıxılma yaxud tutulmaları, bu tutulmaların səbəblərini qeyd edin.

# HƏFTƏLİK İŞ JURNALI NÜMUNƏSİ

| İşçi | Nəzarətçi |
|---|---|

| Tarix | Fəaliyyətlər | Saatlar | Ödəniş |
|---|---|---|---|
| | | Giriş : ______________<br>Çıxış: ______________<br>Yekun: ____________ | |
| | | Giriş : ______________<br>Çıxış: ______________<br>Yekun: ____________ | |



# AŞAĞIDA QEYD OLUNANLAR HAQQINDA DAHA ƏTRAFLI MƏLUMAT ƏLDƏ ETMƏK ÜÇÜN BU İNTERNET SƏHİFƏLƏRİNƏ DAXİL OLUN:

*(Aşağıda qeyd olunan internet səhifələr ingilis dilindədir).*

- Viza müraciəti prosesi və ABŞ vizanız: *usvisas.state.gov.*
- İnsan alveri: *www.state.gov/j/tip.*
- J-1 – viza mübadilə proqramı: *j1visa.state.gov.*
- Bərabərlik, irq, rəng, din, cins (o cümlədən, hamiləlik), milliyyət, yaş (40 və daha çox), əlillik və genetik məlumata görə iş yerində ayrı-seçkilikdən azad olmaq, ayrı-seçkilik ittihamı irəli sürmək hüquqlarınız: *www.eeoc.gov.*
- İş yerinizdə təhlükəsizlik hüquqlarınız; əgər işinizin təhlükəli olduğunu düşünürsünüzsə və yoxlama tələb etmək istəyirsinizsə: *www.osha.gov.*
- İşəgötürəndən ödənilməmiş əməkhaqqının alınması qaydası: *webapps.dol.gov/wow.*
- Ödənişin ədalətli edilməsi ilə bağlı, o cümlədən, əməkhaqqı ilə bağlı şikayətin verilməsi hüquqlarınız: *www.dol.gov/WHD/immigration.*
- Vətəndaşlıq vəziyyətinizə görə ayrı-seçkiliyə məruz qalmamaq və ayrı-seçkilik ilə bağlı şikayət vermək hüququnuz: *www.justice.gov/crt/filing-charge.*
- Əməkhaqqınızı və iş şərtlərinizi yaxşılaşdırmaq üçün başqa işçilərlə birləşmək, o cümlədən, ittiham irəli sürmək hüququnuz: *www.nlrb.gov.*
- Tibbi sığorta üzrə hüquqlarınız, öhdəlikləriniz və imtiyazlarınız: *localhelp.healthcare.gov.*

Bu kitabça Vilyam Vilberfors İnsan Alveri Qurbanlarının
qorunması üçün səlahiyyətlərin bölünməsi Aktı, 2008-ci il,
İctimai Hüquq 110-457-nin 202-ci hissəsinə uyğun olaraq hazırlanıb.